AZƏRMAŞ

# "Azərmaş Group"

# Məhdud Məsuliyyətli Cəmiyyəti

*Hər birinin nominal dəyəri 100 (bir yüz) ABŞ dolları olan 100 min (bir yüz min) ədəd faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazların*

## BAZA EMİSSİYA PROSPEKTİ

**Bakı-2026**

**Qeyd:** Azərbaycan Respublikasının Mərkəzi Bankı bu Baza Emissiya Prospektində olan məlumatların düzgünlüyünə görə məsuliyyət daşımır və nəzarət orqanı kimi onu qeydiyyata almaqla yerləşdirilən qiymətli kağızlara münasibətini ifadə etmir.

Baza Emissiya Prospektinin tərtib edilməsində iştirak edən şəxslər və
Baza Emissiya Prospektində təqdim edilmiş məlumatlara dair

# BƏYANAT

Biz, aşağıda imza edənlər,

1. Bu Baza Emissiya Prospektini tərtib etməzdən öncə Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016-ci il tarixli 05 nömrəli Qərarı ilə təsdiq edilmiş "Emissiya Prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar ilə tanış olduğumuzu təsdiq edirik.
2. "Azərmaş Group" MMC-nin hər birinin nominal dəyəri 100 (bir yüz) ABŞ dolları olan 100 min (bir yüz min) ədəd faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazlarının Baza Emissiya Prospektinə daxil edilən bütün məlumatlar həqiqi faktlara əsaslanır, heç bir faktın gizlədilməmişdir və bunun üçün bütün lazımi tədbirlər görülmüşdür.

**"Azərmaş Group" MMC-nin Direktoru:**

Rövşən Rəfail oğlu Adıgözəlov

______________________________

Tarix: 17 aprel 2026-cı il

**"Azərmaş Group" MMC-nin Baş mühasibi:**

Nərmin Bayram qızı Əkbərova

______________________________

Tarix: 17 aprel 2026-cı il

# MÜNDƏRİCAT

**XÜLASƏ**.....4

1. Xəbərdarlıq .....4
2. Emitent barədə məlumat .....4
3. Qiymətli kağızlar haqqında məlumat .....6
4. Risk faktorları .....8
5. Təklif .....8

**İstiqrazların emitenti barədə tələb olunan məlumatlar**.....10

6. Emitentin auditorları barədə məlumat.....11
7. Seçilmiş maliyyə məlumatı .....11
8. Emitent barədə məlumat .....11
9. Emitentin biznesinin icmalı .....12
10. Digər təşkilatda iştirak .....13
11. Tendensiyalar barədə məlumat .....13
12. Gəlir proqnozu .....13
13. Emitentin idarəetmə və nəzarət orqanları .....13
14. İdarə heyətinin işgüzar praktikası .....15
15. Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan şəxslər .....15
16. Emitentin maliyyə məlumatları .....15
17. Emitent haqqında əlavə məlumatlar .....19
18. İstiqrazlar haqqında ümumi məlumat.....21

# XÜLASƏ

## 1. Xəbərdarlıq

**1.1.** Bu sənəd Baza Emissiya prospektinin giriş hissəsidir;

**1.2.** Qiymətli kağızlara investisiya etmək barədə hər hansı bir qərar investorun Baza Emissiya prospektini oxuduqdan sonra həyata keçirilməlidir;

**1.3.** Baza Emissiya prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya istiqrazlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman Baza Emissiya prospektini hazırlamış şəxslər mülki məsuliyyət daşıyırlar.

## 2. Emitent barədə məlumat

**2.1. Emitentin tam adı:** "Azərmaş Group" ("Cəmiyyət") Məhdud Məsuliyyətli Cəmiyyəti.

**2.2. Emitentin olduğu yer və təşkilati-hüquqi forması, emitentin qeydiyyatda olduğu ölkə:**
Azərbaycan Respublikası; AZ 1065, Bakı şəhəri Yasamal rayonu, Mirzə Fətəli Axundov, ev 177;
Təşkilati-hüquqi forması: Məhdud Məsuliyyətli Cəmiyyət.

**2.3.Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən məlum tendensiyaların təsviri:**

Hazırki dövrdə "Azərmaş Group" MMC-nin fəaliyyət göstərdiyi avtomobil bazarında bir sıra mühüm iqtisadi, texnoloji və istehlakçı davranışı ilə bağlı tendensiyalar müşahidə olunur. Sözügedən tendensiyalar Emitentin əməliyyat fəaliyyətinə birbaşa təsir göstərir və gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində əsas rol oynayır.

**İqtisadi tendensiyalar:** Ölkədə iqtisadi sabitliyin qorunması, əhalinin alıcılıq qabiliyyətində müşahidə olunan artım və avtomobil bazarına olan tələbin yüksəlməsi Emitentin satış həcmlərinə müsbət təsir göstərmişdir. Eyni zamanda, idxal olunan avtomobillərə tətbiq edilən gömrük rüsumları və vergi siyasəti bazarda qiymət formalaşmasına və satış strategiyalarına bilavasitə təsir edir. İkinci əl avtomobil seqmentində aktivliyin artması isə şirkətin fəaliyyətini daha çevik və bazar yönümlü planlaşdırmasını tələb edir.

**Texnoloji tendensiyalar:** Qlobal avtomobil sənayesində baş verən dəyişikliklər, xüsusilə elektrik və hibrid avtomobillərə artan maraq yerli bazarda da öz əksini tapmaqdadır. Elektrikli avtomobillərin idxalına tətbiq edilən güzəştlər və dövlət dəstəyi bu seqmentin inkişafını sürətləndirmişdir. Emitent də bu istiqamətdə uyğun modellərin gətirilməsi, satışının təşkili və texniki xidmət infrastrukturunun genişləndirilməsi üzərində çalışır.

**İstehlakçı davranışındakı dəyişikliklər:** Müştərilərin xidmət keyfiyyətinə, satışdan sonrakı dəstəyə və daha əlverişli lizinq və kredit şərtlərinə olan tələbatı artır. Eyni zamanda, onlayn satış platformalarına və rəqəmsal xidmət kanallarına keçid prosesi sürətlənmişdir. Bu meyillər Emitenti rəqəmsal transformasiya proqramlarını gücləndirməyə, müştəri yönümlü xidmət modelini inkişaf etdirməyə və fəaliyyət proseslərini optimallaşdırmağa sövq edir.

**Rəqabət mühiti:**Avtomobil bazarında həm yerli, həm də beynəlxalq brendlərin iştirakı rəqabət səviyyəsini yüksəltmişdir. Tanınmış xarici markaların yerli bazarda aktivliyi Emitentin bazar payını qorumaq və genişləndirmək üçün innovativ yanaşmaların, çevik idarəetmə modellərinin və effektiv marketinq strategiyalarının tətbiqini zəruri edir.

**2.4.Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri. Emitentin qrupda olan şəxslərdən asılı olduğu təqdirdə bu barədə qeyd:**

| Adı | Əsas fəaliyyəti | Təsis edildiyi ölkə | Kapitalda payı |
|---|---|---|---|
| "Azərmaş" ASC – payçı | Qarşılıqlı fondların, yəni investisiya kompaniyaları tərəfindən idarə edilən açıq tipli pay trastlarının (fondlarının) idarə edilməsi | Azərbaycan | 100 pay |

**2.5. Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd:** Gəlir proqnozu mövcud deyil.

**2.6. Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri:**

2022, 2023 və 2024-cü illərdə "Azərmaş Group" MMC-nin kənar audit yoxlaması Baker Tilly Audit Azərbaycan QSC audit şirkəti tərəfindən aparılmışdır. Kənar audit rəyinə əsasən, "Azərmaş Group" MMC-nin maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından Cəmiyyətin il sonuna maliyyə vəziyyətini və həmin il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq düzgün əks etdirir. Audit zamanı 2022-2024-cü illər üzrə balans hesabatı, Mənfəət və Zərər haqqında hesabat, Kapitalda dəyişiklik və Pul vəsaitlərinin Hərəkəti haqqında hesabatlar üzrə cədvəllər tərtib olunmuş və rəylərdə əks etdirilmişdir. Həmin dövrlər üzrə Cəmiyyətin fəaliyyətinə müsbət rəy verilmişdir. 2022-2024-cü illər üzrə kənar audit tərəfindən verilmiş rəylərdə mühüm və ya riskli qeydlər olmamışdır.

**2.7. Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş dmaliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir. Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə məlumat. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir.**

| Göstəricilər (Manatla) | 31.12.2022 (Audit edilmiş) | 31.12.2023 (Audit edilmiş) | 31.12.2024 (Audit edilmiş) | 31.12.2025 (Audit edilməmiş) |
|---|---|---|---|---|
| Cəmi aktivlər | 24 691 278 | 27 348 359 | 56 205 796 | 47 672 461 |
| Cəmi öhdəliklər | 22 739 472 | 20 311 007 | 39 833 034 | 22 819 300 |
| Cəmi kapital | 1 951 806 | 7 037 352 | 16 372 762 | 24 853 161 |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 208 419 | 429 300 | 442 416 | 2 124 783 |
| Mal-material ehtiyatları | 6 626 590 | 11 904 625 | 10 150 854 | 5 054 522 |
| Satış gəlirləri | 13 944 155 | 31 191 426 | 63 657 809 | 81 591 366 |
| Mənfəər vergisindən əvvəl mənfəət | 404 475 | 6 359 748 | 11 824 841 | 8 486 464 |
| İl üzrə cəmi məcmu gəlir | 236 431 | 5 085 546 | 9 335 410 | 8 480 399 |

Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin maliyyə vəziyyətində və maliyyə nəticələrində əhəmiyyətli dəyişikliklər olmamışdır.

**2.8. Emitentin ödəmə qabiliyyətinə təsir edən ən son hadisələr:**

Cəmiyyətin son üç ildəki fəaliyyəti yüksək artım templəri və maliyyə dayanıqlığının güclənməsi ilə xarakterizə olunur. Şirkətin birbaşa bank borcları minimal səviyyədədir və bütün öhdəliklər hər hansı bir gecikmə baş vermədən vaxtında icra edilir. Dövlət utilizasiya proqramı və bir sıra tərəfdaşlarla imzalanmış iri həcmli yeni müqavilələr sayəsində satışlar kəskin artmışdır. Gəlirlər son illərdə yüksək templə yüksələrək 2025-ci ildə 81.6 milyon manata çatmışdır ki, bu da 2021-ci illə müqayisədə təxminən 7 dəfə artım deməkdir. Hacıqabul Sənaye Parkının rezidenti statusunun qazanılması və yerli istehsal olan avtomobillərin satış payının 82%-ə yüksəlməsi şirkətin rəqabət gücünü əhəmiyyətli dərəcədə artırmışdır. Beynəlxalq təchizat zəncirində fərqli ölkələrlə əməkdaşlıq geosiyasi risklərin təsirini azaldaraq xammal tədarükünün davamlılığını qoruyur. Şirkət yaxın gələcəkdə dövriyyə vəsaitlərini daha da genişləndirmək üçün 10 milyon ABŞ dolları məbləğində qiymətli kağızların emissiyasını planlaşdırır. Proqnozlar göstərir ki, güclənən likvidlik göstəriciləri borc öhdəliklərinin rahat icrası üçün möhkəm maliyyə bazası formalaşdırır. Yekun olaraq, sağlam kapital strukturu və faiz yükünün azlığı müəssisənin kredit qabiliyyətini və maliyyə dayanıqlığını müsbət xarakterizə edir.

**2.9.Emitentin əsas fəaliyyətlərinin təsviri:**"Azərmaş Group" Məhdud Məsuliyyətli Cəmiyyəti Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan edilməyən bütün fəaliyyət növləri ilə məşğul ola bilər. Cəmiyyətin fəaliyyət istiqamətləri Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir və xüsusi icazə (lisenziya) tələb olunan fəaliyyət növləri yalnız müvafiq icazə alındıqdan sonra həyata keçirilir.Hazırda "Azərmaş Group" MMC-nin əsas fəaliyyəti Azərbaycan Respublikası ərazisində yük və minik avtomobillərinin yığımı, satışı, idxalı və bu sahə ilə bağlı xidmətlərin göstərilməsindən ibarətdir. Cəmiyyətin əsas məqsədi yerli avtomobil sənayesinin inkişafına töhfə verməklə yanaşı, istehlakçılara keyfiyyətli, etibarlı və müasir texniki tələblərə cavab verən nəqliyyat vasitələri təqdim etməkdir.

**İstehsal fəaliyyəti:** Cəmiyyətin avtomobil yığımı fəaliyyəti Neftçala Sənaye Məhəlləsində və Hacıqabul Sənaye Parkında yerləşən, müasir texnoloji tələblərə uyğun zavodlarda həyata keçirilir. Bu zavodlarda müxtəlif seqmentlər üzrə — minik, yüngül yük və kommersiya avtomobilləri — istehsal edilir. İstehsal prosesi beynəlxalq standartlara uyğun təşkil olunur, yerli əmək resurslarının cəlb edilməsi və istehsalın yerli dəyər zəncirinə inteqrasiyası prioritet istiqamətlərdəndir.

**Satış fəaliyyəti:** Şirkətin avtomobillərinin satışı Bakı şəhərində yerləşən rəsmi satış və nümayiş salonları vasitəsilə həyata keçirilir. Satış prosesi müasir müştəri xidmətləri standartlarına uyğun təşkil olunmuşdur. Müştərilərə nəqliyyat vasitələrinin satışı ilə yanaşı, satışdan sonrakı xidmətlər — texniki servis, ehtiyat hissələrinin təminatı və zəmanət dəstəyi də göstərilir.

**İdxal fəaliyyəti:** "Azərmaş Group" MMC eyni zamanda yerli bazarın tələblərinə uyğun olaraq dünyanın aparıcı istehsalçılarından müxtəlif modellərin idxalını həyata keçirir. İdxal olunan avtomobillər həm minik, həm də yük seqmentlərini əhatə edir. Bu fəaliyyət istiqaməti bazarda məhsul çeşidinin genişləndirilməsinə və müştəri tələbatının tam qarşılanmasına xidmət edir.

**Digər fəaliyyətlər və məqsədlər:** Cəmiyyət yerli avtomobil sənayesinin inkişafına dəstək olmaq, istehsal sahəsində müasir texnoloji tələblərin tətbiqini təmin etmək və ölkənin ixrac potensialını artırmaq məqsədilə bir sıra xarici tərəfdaşlarla əməkdaşlıq istiqamətində danışıqlar aparır. Bununla yanaşı, "Azərmaş Group" MMC öz fəaliyyətində korporativ idarəetmə prinsiplərinə, şəffaflıq və məsuliyyətlilik standartlarına sadiq qalır.

**2.10.Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsisiyyəti:** Emitentin Nizamnamə kapitalını təşkil edən 3 000 010 (üç milyon on) manat, 100% pul şəklində olan 100 (yüz) pay, onun yeganə payçısı "Azərmaş" Açıq Səhmdar Cəmiyyəti (VÖEN 1305270301).

Cəmiyyətin Ali İdarəetmə Orqanı onun İştirakçıların Ümumi Yığıncağıdır. Ümumi Yığıncağı nizamnamə kapitalının 50 (əlli) % artıq paya malik olan İştirakçılar iştirak etdikdə səlahiyyətli sayılır. Cəmiyyətin nizamnaməsinin 4.1. bəndinə müvafiq olaraq İştirakçıların Ümumi Yığıncağın səlahiyyətləri yeganə payçı olan "Azərmaş" Açıq Səhmdar Cəmiyyəti tərəfindən icra edilir.

# 3. Qiymətli kağızlar haqqında məlumat

**3.1.İstiqrazların növü:** faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazlar.

**3.2.İstiqrazların valyutası:** ABŞ dolları.

**3.3.İstiqrazlarla təsbit olunan məhdudiyyətlər:** Mövcud deyil.

**3.4.İstiqrazlarla təsbit olunmuş hüquqların təsviri:**

- Emitentin ləğvi, yaxud emitentin kreditorlarının tələblərinin ödənilməsinin təminatına real təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda İstiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;
- İstiqrazların tədavül müddətinin sonunda istiqrazların nominal dəyərini Emitentdən almaq;
- İstiqrazların tədavül müddəti ərzində istiqrazların nominal dəyərindən hər bir buraxılışın yekun şərtlərində müəyyən olunmuş faiz dərəcəsinə uyğun faiz gəliri almaq;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

**3.5. İstiqrazların faiz dərəcəsi. İstiqrazların faizlərinin və dəyərinin ödənilmə tarixi və müddəti. Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin nəyin əsasında hesablanması üsulu, həmin əsas barədə məlumat və onun müəyyən olunmasının mənbələr:**
1-ci buraxılış üzrə istiqrazların illik faiz dərəcəsi 9 (doqquz) faiz təşkil edir, 2-ci buraxılış üzrə isə istiqrazların illik faiz dərəcəsi yekun şərtlər ilə müəyyən olunacaq. İstiqrazlar üzrə hesablanmış faizlər, buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 24 (iyirmi dörd) ay müddətində, ildə günlərin sayı 360 (üç yüz altmış) olaraq götürülməklə) hər (üç) təqvim ayından bir ödəniləcəkdir. 1-ci buraxılış üzrə istiqrazların tədavül müddəti 24 (iyirmi dörd) ay təşkil edir. İstiqrazların dəyəri tədavül müddətinin sonunda ödəniləcək. İstiqrazların nominal dəyərinin ödənişi qeyri-iş gününə təsadüf edərsə, ödənişlər növbəti iş günü həyata keçiriləcəkdir.

**3.6. Təmin edilmiş istiqrazlar üzrə təminatın təsviri və şərtlər:** İstiqrazlar təmin edilməmiş formada buraxılır.

**3.7. İstiqrazların geri satın alınma şərtləri:** Emitent tərəfindən istiqrazların tədavül müddəti ərzində geri satın alınması nəzərdə tutulmur.

**3.8. Gəlirin qısa formada hesablama metodunu göstərməklə gəlir göstəricisi:** İstiqrazların nominal dəyərinin ödənilmə müddəti buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 24 (iyirmi dörd) ay təşkil edir. İstiqrazların tədavül müddəti istiqrazların "Bakı Fond Birjası" QSC-də yerləşdirildiyi gün başlayır. İstiqrazların nominal dəyəri istiqrazların tədavül müddətinin son günündə ödəniləcək. İstiqrazların nominal dəyərinin ödənişi qeyri-iş gününə təsadüf edərsə, ödənişlər növbəti iş günü həyata keçiriləcəkdir. İstiqrazlar üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir:

$$TF = \frac{\frac{(N * D * G)}{360}}{100}$$

**Burada:**

**TF** – Bir istiqraz üzrə toplanmış faizlər;

**N** – Bir istiqrazın nominal dəyəri: 100 (bir yüz) ABŞ dollar

**D** – İstiqrazların illik faiz dərəcəsi: 9 (doqquz faiz)

**G** – İstiqrazların faiz ödəniş dövrünün müddəti (hər 3 (üç) ayda bir (bir ayda 30 (otuz) gün olduğunu qəbul etmək şərti ilə);

**3.9. İstirazların mülkiyyətçisinin təmsilçisinin adı:** Mövcud deyil.

**3.10. Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** İstiqrazlar təmin edilməmiş formada buraxılır.

**3.11. İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat: Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda, istiqrazların ticarətə buraxılacağını tənzimləyən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:** İstiqrazların yerləşdirilməsi kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi Baza Emissiya prospekti dövlət qeydiyyatına alındıqdan sonra "Bakı Fond Birjası" QSC-nin ticarət platformasında həyata keçiriləcək. İstiqrazların listinqə daxil olması ilə bağlı müraciət Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən buraxılış dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.

Emissiya prosesində iştirak edən "Bakı Fond Birjası" QSC yeni emissiya edilmiş istiqrazların ticarətə buraxılması üçün icazə prosedurudur, hərrac vasitəsilə istiqrazların ilkin yerləşdirilməsi, listinqə daxil edilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti"-ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızları bazarı

• korporativ qiymətli kağızlar bazarı
• törəmə maliyyə alətləri bazarı

Qiymətli kağızların ticarətə buraxılması "Bakı Fond Birjası" QSC-də qiymətli kağızların ticarətə qəbulu, listinqə alınması, listinqdə saxlanılması və delistinqi Qaydaları" na əsasən həyata keçirilir.

Yerləşdiyi ünvan: AZ1022, Bakı şəhəri, Nəsimi rayonu, Cəlil Məmmədquluzadə küç, 102A.
(City Point Biznes Mərkəzi)
Elektron poçt ünvanı: info@bse.az
İnternet şəbəkəsində rəsmi səhifəsi: bfb.az
Tel: (+99412) 498 98 20

# 4. Risk faktorları

**4.1. Təklif olunan istiqrazlarla əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları:**

• Valyuta riski – valyuta məzənnələrinin əlverişsiz istiqamətdə dəyişməsi nəticəsində yaranan potensial itkilər riski.
• Faiz risk – bazarda faiz dərəcələrinin mənfi istiqamətdə dəyişməsi nəticəsində istiqrazların gəlirliliyinə və bazar dəyərinə təsir göstərən risk.
• İnflyasiya riski – inflyasiyanın artması nəticəsində pulun alıcılıq qabiliyyətinin azalması və real gəlirin dəyərinin aşağı düşməsi riski.
• Likvidlik riski – istiqrazların istənilən vaxtda bazarda satılması və ya alınması ilə bağlı çətinliklərin yaranması ehtimalı.
• Əməliyyat riski – daxili idarəetmə proseslərindəki səhvlər, sistem nasazlıqları, insan faktoru və ya xarici hadisələr nəticəsində mümkün itkilər.
• Hesablaşma və kontragent riski – hesablaşmaların gecikməsi və ya kontragentlərin öhdəliklərini vaxtında yerinə yetirməməsi səbəbindən yaranan itkilər riski.
• Kredit riski – borcalanın maliyyə çətinlikləri və ya ödəniş qabiliyyətsizliyi səbəbindən öhdəliklərin yerinə yetirilməməsi riski.
• Təbii risklər – insan fəaliyyətindən asılı olmayan, zəlzələ, daşqın, tufan, ildırım və digər təbii fəlakətlər nəticəsində yaranan itkilər riski.

**4.2. İstiqraz emissiyası zamanı emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilən risk faktorları:** İqtisadi şəraitin dəyişməsi, maliyyə və likvidlik problemlərinin yaranması, idarəetmədəki çatışmazlıqlar, hüquqi və tənzimləyici mühitdə baş verən dəyişikliklər, siyasi qeyri-sabitlik, bazar riskləri, eləcə də təbii fəlakətlər kimi amillər Emitentin maliyyə sabitliyinə və nəticə etibarilə öhdəliklərini vaxtında və tam həcmdə yerinə yetirmək qabiliyyətinə mənfi təsir göstərə bilər. Bununla yanaşı, Emitentin fəaliyyət göstərdiyi avtomobil sənayesi və nəqliyyat xidməti sahəsində baş verən dəyişikliklər də risk amili kimi qiymətləndirilə bilər. Xüsusilə:

• idxal olunan ehtiyat hissələrinin qiymətinin artması;
• yanacaq və logistika xərclərinin yüksəlməsi;
• istehsal və təchizat zəncirində gecikmələrin yaranması;
• istehlakçıların ödəmə qabiliyyətinin zəifləməsi və maliyyə bazarlarında qeyri-sabitlik.

Yuxarıda göstərilən hallar Emitentin gəlirliliyinə və maliyyə sabitliyinə təsir göstərməklə, istiqrazlar üzrə öhdəliklərin yerinə yetirilməsi imkanlarını müəyyən dərəcədə məhdudlaşdıra bilər.

# 5. Təklif

**5.1. Təklifin səbəbi mənfəətin əldə edilməsi və ya bəzi risklərin sığortalanmasından fərqli olduğu təqdirdə emissiyanın səbəbi:** Emissiyadan əldə ediləcək 10 000 000 (on milyon) ABŞ dolları məbləğində qiymətli kağızlardan əldə olunacaq vəsait aşağıdakı istiqamətlər üzrə dövriyyə vəsaitinin artırılmasına yönəldiləcəkdir:

• Tələbatın artması fonunda "Jetour" markalı avtomobillərin SKD (Semi Knocked Down) tipli istehsalına başlanılmış və satış dövriyyəsinin artırılması planlaşdırılır (ilk mərhələdə yalnız hazır avtomobillərin idxalı həyata keçirilirdi).

• VGV, JAC və VAZ markalı avtomobillər üzrə SKD tipli istehsalın genişləndirilməsi və satış həcmlərinin artırılması nəzərdə tutulur.

**5.2. Təklifin şərtlərinin təsviri:** İstiqrazlar kütləvi təklif üsulu ilə Bakı Fond Birjasında yerləşdiriləcəkdir. İstiqrazlar birqiymətli hərrac üsulu ilə BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alqı-satqı əqdləri bağlanılmaqla ilkin yerləşdiriləcəkdir. İstiqrazların yerləşdirilməsinə onların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır. Hərrac günü anderrayter və digər birja üzvləri sifarişlərin qəbul edilməsi üçün elan olunmuş müddət ərzində istiqrazların alınması üçün sifarişləri BFB-yə təqdim edir. İnvestorlar tərəfindən təqdim edilmiş sifarişlərin cəmi emissiyanın ümumi həcmindən çox olarsa, sifarişlər proporsional qaydada icra olunacaqdır. Hərrac günündən gec olmayaraq, istiqrazların alınması üçün pul vəsaitləri investorlar tərəfindən anderrayterin hesablaşma agenti kimi çıxış edən "Azər-Türk Bank" ASC-də açılmış emitentin müvəqqəti cari hesabına köçürülməlidir. Hərracın keçirilməsi tarixi Emitent tərəfindən müəyyən edilir və hərracın keçirilməsinə ən azı 2 iş günü qalmış BFB-nin internet saytında (bfb.az) və Anderrayterin internet saytında açıqlanır.

**5.3. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:**

***"Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti.*** Emissiya prosesində iştirak edən Bakı Fond Birjası yeni emissiya edilmiş istiqrazların listinqə daxil edilməsi, hərrac vasitəsilə istiqrazların ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

• dövlət qiymətli kağızları bazarı;

• korporativ qiymətli kağızlar bazarı;

• törəmə maliyyə alətləri bazarı.

BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

Yerləşdiyi ünvan: AZ1022 Bakı şəhəri, Nəsimi rayonu, Cəlil Məmmədquluzadə küç, 102A.
(City Point Biznes Mərkəzi)
Elektron poçt ünvanı: info@bse.az
İnternet şəbəkəsində rəsmi səhifəsi: bfb.az
Tel: (+99412) 498 98 20

***Milli Depozit Mərkəzi.*** Milli Depozit Mərkəzi (bundan sonra "MDM") Qiymətli Kağızlar Bazarı haqqında Qanunun 16.1-ci maddəsinə əsasən təsis olunan qeyri-kommersiya hüquqi şəxsidir. Ödənişlər üzrə hesablaşma agenti qismində Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi çıxış edir. MDM Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır. Emissiya Prossesində MDM-in vəzifələri aşağıdakılardır:

• qiymətli kağızların saxlanması və uçotunun aparılması;

• qiymətli kağız mülkiyyətçilərinin reyestrinin aparılması;

• Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə ödənişlərin (əsas borc və faiz) həyata keçirilməsi xidmətinin göstərilməsi.

***Anderrayter.*** Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən verilmiş 24.12.2021 tarixli İŞ-08 nömrəli müddətsiz lisenziyaya malik olan "Troni İnvestisiya Şirkəti" QSC qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir. İstiqrazların yerləşdirmə müddəti ərzində anderrayter uçota alınmış sifarişləri fond birjasının ticarət sisteminə daxil

edir və Bakı Fond Birjasının ticarət sistemi vasitəsi ilə istiqrazların yerləşdirilməsi xidmətlərini göstərir. Bu emissiyada iştirak edən üçüncü şəxslər arasında emitentlə aidiyyatı şəxs yoxdur. Mərkəzi Depozitar istiqrazları depozitar sistemində saxlanılmağa qəbul edilməsi üçün komissiya əldə edir. Fond birjası və anderrayter isə istiqrazlar yerləşdirildikcə emitentdən və investorlardan komissiya əldə edir və bir başa maddi maraqları vardır. Emissiyada iştirak edən şəxslər arasında maraqlar toqquşmasına yol açan hallar mövcud deyil.

**5.4.İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:**

**Vergilər.** Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 123.1 ci maddəsinə əsasən Rezident fiziki şəxsə, qeyri-rezident fiziki şəxsin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinə (maliyyə lizinqini həyata keçirən fiziki şəxslər istisna olmaqla) və Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezidentə rezident tərəfindən və ya qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən, yaxud bu cür nümayəndəliyin adından ödənilən faizlərdən, o cümlədən maliyyə lizinqi əməliyyatları üzrə ödənilən ssuda faizlərindən, gəlir Vergi Məcəlləsinin 13.2.16-cı maddəsinə uyğun olaraq Azərbaycan mənbəyindən əldə edilmişdirsə, Məcəllənin 102.1.22-2-ci maddəlsində nəzərdə tutulmuş güzəşt nəzərə alınmaqla ödəniş mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur.

Həmçinin, AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat emitent və yaanderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır.

**Xərclər.** İlkin bazarda istiqrazların alışı zamanı həyata keçən əqdlərdən aşağıdakı investor xərcləri yarana bilər:

• Bakı Fond Birjası – əqdin həcmindən 0.02%;

• Milli Depozit Mərkəzi – depo hesabının açılışı 5 (beş) AZN, investisiya şirkəti tərəfindən depo hesabı açılışı ilə bağlı əlavə rüsum tətbiq edilə bilər;

• Bank köçürmə xərcləri – bankdan asılı olaraq dəyişir;

• Anderrayter xidmətləri – investisiya şirkəti ilə investor arasında bağlanılmış müqavilədən asılı olaraq dəyişir.

# İstiqrazların emitenti barədə tələb olunan məlumatlar

## 6. Emitentin auditorları barədə məlumat

**6.1.Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı, ünvanları və hər hansı təşkilatda üzvlüyü barədə məlumat:**

| Maliyyə ili | Auditorun adı | Ünvanı | Audit təşkilatında üzvlüyü barədə məlumat |
|---|---|---|---|
| **2022** | Baker Tilly Audit Azərbaycan QSC | AZ1022, Bakı Şəhəri C.Məmmədquluzadə küç 102A | Audit təşkilatına üzvdür. |
| **2023** | Baker Tilly Audit Azərbaycan QSC | AZ1022, Bakı Şəhəri C.Məmmədquluzadə küç 102A | Audit təşkilatına üzvdür. |
| **2024** | Baker Tilly Audit Azərbaycan QSC | AZ1022, Bakı Şəhəri C.Məmmədquluzadə küç 102A | Audit təşkilatına üzvdür. |

**6.2.Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə səbəbləri göstərilməklə məlumat:** Son üç ildə audit şirkəti dəyişməyib.

## 7. Seçilmiş maliyyə məlumatı

**7.1.Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir:** Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin maliyyə vəziyyətində və maliyyə nəticələrində əhəmiyyətli dəyişikliklər olmamışdır.

| Göstəricilər (Manatla) | 31.12.2022 (Audit edilmiş) | 31.12.2023 (Audit edilmiş) | 31.12.2024 (Audit edilmiş) | 31.12.2025 (Audit edilməmiş) |
|---|---|---|---|---|
| Cəmi aktivlər | 24 691 278 | 27 348 359 | 56 205 796 | 47 672 461 |
| Cəmi öhdəliklər | 22 739 472 | 20 311 007 | 39 833 034 | 22 819 300 |
| Cəmi kapital | 1 951 806 | 7 037 352 | 16 372 762 | 24 853 161 |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 208 419 | 429 300 | 442 416 | 2 124 783 |
| Mal-material ehtiyatları | 6 626 590 | 11 904 625 | 10 150 854 | 5 054 522 |
| Satış gəlirləri | 13 944 155 | 31 191 426 | 63 657 809 | 81 591 366 |
| Mənfəət vergisindən əvvəl mənfəət | 404 475 | 6 359 748 | 11 824 841 | 8 486 464 |
| İl üzrə cəmi məcmu gəlir | 236 431 | 5 085 546 | 9 335 410 | 8 480 399 |

## 8. Emitent barədə məlumat

**8.1.Emitentin tam adı, təşkilati-hüquqi forması:** "Azərmaş Group" Məhdud Məsuliyyətli Cəmiyyəti.

**8.2.Emitentin dövlət qeydiyyatının rekvizitləri:** VÖEN: 1404517221; Dövlət qeydiyyatına alındığı tarix: 24.01.2019-cu il.

**8.3.Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilati-hüquqi formaları, o cümlədən dəyişikliklərin dövlət qeydiyyatı tarixi:** Mövcud deyil.

**8.4.Emitentin olduğu yer, poçt ünvanı, elektron poçt ünvanı, emitentin internet səhifəsinin ünvanı və əlaqə telefonları:**

Ünvanı: AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, S.Rəhimov küçəsi, ev.195, m.8.

Telefon: (+99412) 437 07 18

İnternet səhifəsinin ünvanı: azermash.az

Elektron poçt ünvanı: afandiyeva.fb@azermash.az ; abdullayev.tm@azermash.az

**8.5.Maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən əsas investisiyaların təsviri (məbləği göstərilməklə):** Mövcud deyil.

**8.6.İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəlikləri və həmin öhdəlikləri yerinə yetirmək üçün lazım olan maliyyə vəsaiti mənbələri ilə bağlı məlumat:** Mövcud deyil.

**8.7.Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat:** Emissiya prosesində iştirak edən BFB yeni emissiya edilmiş istiqrazların ticarətə buraxılması üçün icazə proseduruduru, hərrac vasitəsilə istiqrazların ilkin yerləşdirilməsi, listinqə daxil edilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti"-ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

• dövlət qiymətli kağızları bazarı;
• korporativ qiymətli kağızlar bazarı;
• törəmə maliyyə alətləri bazarı.

Yerləşdiyi ünvan: AZ1022 Bakı şəhəri, Nəsimi rayonu, Cəlil Məmmədquluzadə küç, 102A (City Point Biznes Mərkəzi)
Elektron poçt ünvanı: info@bse.az
İnternet şəbəkəsində rəsmi səhifəsi: bfb.az
Tel: (+99412) 498 98 20

## 9. Emitentin biznesinin icmalı

**9.1.Emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərinin əsas kateqoriyalarını göstərərək emitentin əsas fəaliyyətlərinin təsviri:** Azərbaycan Respublikası ərazisində minik və yük avtomobillərinin istehsalı və idxalı sahəsində genişmiqyaslı fəaliyyət göstərilir. Bu fəaliyyət çərçivəsində şirkətimiz, həm yerli istehsalı, həm də xarici idxalı təmin edərək, avtomobil bazarının müxtəlif ehtiyaclarını qarşılayır.

Minik avtomobillərinin istehsalında müasir texnologiyalardan istifadə etməklə, yüksək keyfiyyətli və sərfəli qiymətlərlə avtomobillər təqdim edirik. Eyni zamanda, yük avtomobillərinin istehsalında müxtəlif ölçü və məqsədlərə uyğun modelləri təklif edirik ki, bu da müxtəlif sahələrdə fəaliyyət göstərən müəssisələr üçün əlverişli həllər təqdim edir.

Bundan əlavə, yerli avtomobil bazarına ən yeni minik və yük avtomobillərini idxal edərək müştərilərimizə geniş çeşiddə seçim imkanı yaradırıq. İdxal etdiyimiz avtomobillər yüksək keyfiyyət standartlarına uyğun olaraq təmin edilir və müştərilərimizin ehtiyaclarına cavab verəcək şəkildə çeşidlənir.

Bu fəaliyyətin həyata keçirilməsi ilə, həm yerli istehsalın dəstəklənməsi, həm də müştəri tələblərinə uyğun keyfiyyətli və müasir avtomobillərin təqdim edilməsi məqsəd güdülür. Emitentin təqdim etdiyi məhsullarla əlaqədar daha ətraflı məlumatları aşağıdakı cədvəldən əldə etmək mümkündür.

| Markalar | 2022-ci il | | | | | | 2023-cü il | | | | | | 2024-cü il | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Yük | | Minik | | Avtobus | | Yük | | Minik | | Avtobus | | Yük | | Minik | | Avtobus | |
| | idxal | Yigim | idxal | Yigim | idxal | Yigim | idxal | Yigim | idxal | Yigim | idxal | Yigim | idxal | Yigim | idxal | Yigim | idxal | Yigim |
| GAZEL | 68 | 55 | | | 11 | | 70 | 163 | | | | 100 | 20 | 180 | | | | 94 |
| FAW | 4 | | | | | | 2 | | | | | | | | | | | |
| CHANGAN | | | 6 | | | | | | 5 | | | | | | | | | |
| PAZ | | | | | 13 | | | | | | 1 | | | | | | | |
| ISUZU | 83 | | | | | | 271 | | | | | | 250 | | | | | |
| VGV | | | | | | | | | 6 | | | | | | | | | |
| LADA | | | | | | | | | 1 | | | | | | | 1204 | | |
| BESTUNE | | | | | | | | | | | | | | | 55 | | | |
| CHEVROLET | | | | | | | | | | | | | | | 109 | | | |
| SOLLERS | | | | | | | | | | | | | | | | | 2 | |
| UAZ | | | | | | | | | | | | | 90 | | 189 | | | |
| Cəmi Ədəd : | 155 | 55 | 6 | 0 | 24 | 0 | 343 | 163 | 12 | 0 | 1 | 100 | 360 | 180 | 353 | 1204 | 2 | 94 |

etdirir. Yeni nəsil avtomobillər dedikdə, müasir texnologiyalarla təchiz olunmuş, Euro 5 standartlarına uyğun olan və ekologiyaya minimum təsir göstərən avtomobillər nəzərdə tutulur. Bu avtomobillər, hava çirkliliyini azaldan, yanacaq istehlakını optimallaşdıran və ətraf mühitə zərər vermədən daha səmərəli işləyən mühərrik sistemlərinə malikdir. Şirkət, ilkin mərhələdə hazır avtomobillərin idxalını azaldaraq, yığım prosesinə üstünlük verməyi planlaşdır. Bu yanaşma ilə, istehsal prosesinin yerli bazarda daha yüksək qatqı təmin etməsi gözlənilir. Növbəti mərhələdə isə, lokalizasiya prosesi tətbiq ediləcək və bəzi avtomobil hissələrinin Azərbaycan Respublikası ərazisində istehsalı həyata keçiriləcək. Bu addım, şirkətə daha çox yerli resurslardan istifadə etmə imkanı yaradacaq və avtomobil istehsalını daha rəqabətli edəcək.

Bundan əlavə, Emitent mövcud biznesin dövriyyə vəsaitini artırmaq məqsədilə təchizatçılardan yüksək endirimlər əldə etməyi planlaşdırır. Bu tədbir, xərclərin azaldılmasına və məhsulun qiymətinin

daha rəqabətli olmasına imkan verəcəkdir. Nəticədə, bu addımlar şirkətin bazar mövqeyinin güclənməsinə və rəqabət mühitində daha güclü bir mövqe tutmasına səbəb olacaq.

**9.3.Emitentin rəqabət apardığı əsas bazarların təsviri:** Emitent hal-hazırda Azərbaycan Respublikası ərazisində yük və minik avtomobillərinin yığımı, satışı və satışdan sonrakı texniki xidmətlərin göstərilməsi sahəsində fəaliyyət göstərir. Fəaliyyətin əsas məqsədi yerli istehsal potensialını artırmaq, idxaldan asılılığı azaltmaq və müştərilərə daha münasib şərtlərlə avtomobil əldə etmək imkanı yaratmaqdır.

Azərbaycan avtomobil bazarında rəqabət əsasən qiymət siyasəti, məhsul keyfiyyəti, servis xidmətlərinin səviyyəsi, ehtiyat hissələrinin əlçatanlığı və texnoloji yeniliklər əsasında formalaşır. Şirkət bu istiqamətlərdə üstünlük qazanmaq üçün istehsal proseslərini daim təkmilləşdirir, məhsulun keyfiyyət göstəricilərinə xüsusi diqqət yetirir və müştəri məmnuniyyətini əsas prioritet kimi müəyyənləşdirir.

Yerli istehsal nəticəsində formalaşan avtomobillər əlavə dəyər vergisindən (ƏDV) azad olduğu üçün, şirkət məhsullarını idxal olunan analoqlara nisbətən daha aşağı qiymət intervalında təqdim edə bilir. Bu amil yerli bazarda satışların rəqabətqabiliyyətliliyini təmin edir və istehlakçılar üçün daha əlverişli seçim imkanı yaradır.

**9.4.Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onun əsaslandırılması:**

Rəqabət mövqeyinə dair bəyanat mövcud deyildir.

## 10. Digər təşkilatlarda iştirak

**10.1.Emitentin digər hüquqi şəxslərdə iştirakının qısa təsviri:** Mövcud deyil.

**10.2.Emitentin daxil olduğu qruplardan asılılığı və bu asılılığın səbəbi:** Emitent "Azərmaş" ASC-nin 100% təsis etdiyi şirkət olaraq, bu hüquqi şəxsə iqtisadi və idarəetmə baxımından bağlıdır. Bu asılılıq təsisçilik və idarəetmə hüququndan irəli gəlir.

## 11. Tendensiyalar barədə məlumat

**11.1.Audit edilmiş maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən emitentin Baza emissiya prospektində mənfi dəyişikliyin olub-olmaması barədə məlumat:** Göstərilən tarixdən etibarən müəssisənin fəaliyyətində Baza Emissiya Prospektinə mənfi təsir edəcək hər hansı bir hal baş verməmişdir.

**11.2.Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum tendensiyalar, qeyri-müəyyənliklər, öhdəliklər və ya hadisələr barədə məlumat:**

Hazırkı dövrdə, avtomobil bazarının əsas iştirakçısı olan "Azərmaş Group" MMC-də bazara təsir edən əhəmiyyətli qeyri-müəyyənliklər mövcud deyil. Şirkətin mövcud fəaliyyətində, prospektin hazırlandığı tarixə qədər hər hansı bir risk yarada biləcək fəaliyyət istiqaməti yoxdur. Emitent, cari fəaliyyət dövrü ərzində mənfəətliliyini artırmaq məqsədilə yeni partnyorlarla əməkdaşlıq edir və bu, şirkətin inkişafına müsbət təsir göstərir.

## 12. Gəlir proqnozu

Gəlirlərin proqnozu mövcud deyil.

## 13. Emitentin idarəetmə və nəzarət orqanları

**13.1.Emitentin idarəetmə və nəzarət orqanlarının hər bir üzvü barədə aşağıdakı məlumatlar:**

**Emitentin ali idarəetmə orqanı (iştirakçıların ümumi yığıncağı) barədə məlumat:**

| Payçının adı | Payların sayı | Nizamnamə Kapitalında faiz nisbəti | Müstəsna Səlahiyyətləri |
|---|---|---|---|
| "Azərmaş" ASC | 100 | 100% | • Cəmiyyətin Nizamnaməsinə əlavə və dəyişikliklər edilməsi,onun nizamnamə kapitalının miqdarının dəyişdirilməsi;<br>• Cəmiyyətin nizamnamə kapitalına ödənilən pul olmayan əmanətin dəyərinin təsdiq edilməsi;<br>• Cəmiyyətin növbədənkənar ümumi yığıncaqlarının çağırılması hallarının və qaydasının müəyyən edilməsi;<br>• Cəmiyyətin illik hesabatlarının və maliyyə hesabatlarının təstiq edilməsi,mənfəətin və zərərin bölüşdürülməsi;<br>• Cəmiyyətin yenidən təşkili və ya ləğv edilməsi haqqında qərarın qəbul edilməsi;<br>• Cəmiyyətin icra orqlarının yaradılması və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi,o cümlədən Direktorun təyin edilməsi və geri çağırılması;<br>• Cəmiyyətin direktorlar şurası (və ya müşahidə şurası)və (və ya təftiş komissiyasını(müffəttişini)) seçmək və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;<br>• Cəmiyyətin fəaliyyətinin auditor yoxlanışlarının aparılması qaydasının müəyyən edilməsi;<br>• Cəmiyyətin xalis aktivlərinin dəyərinin əlli faizindən artıq məbləğdə olan əqdin bağlanılması barədə qərarın edilməsi;<br>• Aidiyyəti şəxslə hüquqi şəxsin aktivlərinin 5 faiz və daha çox hissəsini təşkil edən əqdin bağlanması ilə bağlı qərarın qəbul edilməsi. |

**Emitentin İcra orqanı barədə məlumat: Təkbaşına icra orqanı – Direktor**

| Adı | Vəzifəsi | Funksiyaları |
|---|---|---|
| Adıgözəlov Rövşən Rəfail oğlu | Direktor | • Cəmiyyətin cari fəaliyyətinə rəhbərlik edir və onun operativ idarə olunmasını həyata keçirir;<br>• Vəkalətnamə olmadan Cəmiyyətin adından öz səlvahiyyəti daxilində çıxış edir, onu bütün dövlət hakimiyyəti və yerli özünüidarə orqanları, kommersiya və qeyri-kommersiya təşkilatları qarşısında, o cümlədən məhkəmədələrdə iddiaçı və cavabdeh qismində təmsil edir;<br>• Ümumi Yığıncaq tərəfindən qəbul edilmiş qərarların vaxtında və lazımi qaydada icra olunmasını təmin edir;<br>• Öz səlahiyyəti daxilində Cəmiyyətin adından mülki-hüquqi müqavilələr, vəkalətnamələr verir ( o cümlədən başqasına etibar etmək hüququ ilə), müvəkkil banklarda Cəmiyyətin istənilən növ bank hesablarını açır və maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı hesab üzrə sərəncam verir;<br>• Cəmiyyətin əməkdaşlarının əmək funksiyasının dairəsini müəyyən edir, onlarla əmək müqavilələri bağlayır, şərtlərini dəyişdirir və qanunvericiliklə müəyyən edilmiş qaydada və əsaslarla əmək müqavilələrini ləğv edir; • Cəmiyyətin əmakdaşları barəsində həvəsləndirmə və intizam təhbehi tədbirləri görür;<br>• Öz səlahiyyəti daxilində qərarlar qəbul edir və həmin qərarları yazılı sürətdə əmrlə rəsmiləşdirir;<br>• Cəmiyyətin fəaliyyəti ilə əlaqədar digər zəruri sənədlərin və təkliflərin hazırlanmasını həyata keçirir. |

**13.2.Xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda maraqların toqquşması barədə hesabat:** Xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda maraqların toqquşması mövcud deyil.

## 14.İdarə heyətinin işgüzar praktikası

**14.1.Audit və mükafatlandırma (olduqda) komitələrinin üzvlərinin adları və komitələrin əsasnamələri ilə onlara verilmiş səlahiyyət əsasında gördükləri işlərin icmalı:** Şirkətin cari idarəetməsində Audit Komitəsi və Mükafatlandırma komitəsi yaradılmamışdır və bu Komitələr mövcud deyildir.

**14.2.Emitentin qeydiyyatda olduğu ölkədə mövcud olan korporativ idarəetmə standartlarına uyğun olub-olmadığı barədə hesabat. Uyğun olmadığı halda bu barədə hesabat:** Şirkətin İdarəetmə orqanları Mülki Məcəlləyə uyğun olaraq, aşağıdakı formada qurulmuşdur:
İştirakçıların Ümumi Yığıncağı; Qanuni təmsilçi funksiyasına malik olan Direktor.

## 15.Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan şəxslər

**15.1.Emitentin nizamnamə kapitalında 10 faizdən artıq iştirak payına sahib olan şəxslərin adları, vətəndaşlığı və onlara məxsus payların sayı və nizamnamə kapitalında olan faiz nisbəti:**
Emitentin Nizamnaməsinə əsasən paylarının 100 %-i "Azərmaş" ASC-ə məxsusdur.

**15.2.Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti və bu nəzarətin sui-istifadə edilmədiyinə əmin olmaq üçün lazımi tədbirlərin təsviri:** Mühüm iştirak payının sahibi tərəfindən Emitentə nəzarət emitentin nizamnaməsinə və AR mülki məcəlləsinə uyğun olaraq həyata keçirilir. Cəmiyyətin Ali idarəetmə orqanı onun İştirakçılarının Ümumi Yığıncağıdır. Ümumi Yığıncaq Emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər. Ümumi Yığıncaq növbəti və növbədənkənar ola bilər. Ümumi Yığıncaq, Cəmiyyətin iştirakçılarının 50%-i iştirak etdikdə səlahiyyətli hesab edilir. Ümumi Yığıncağın səlahiyyətləri Nizamnamə ilə müəyyən edilir. Ümumi Yığıncağın hər bir iştirakçısı səsvermədə iştirak etmək, şəxsən iştirak etmək, nümayəndə vasitəsilə təmsil olunmaq, gündəlikdə dəyişikliklərin edilməsin və gündəliyə yeni müzakirə mövzularının əlavə olunmasını tələb etmək hüquqları mövcuddur.

**15.3.Mühüm iştirak payına sahib olan şəxslərin dəyişməsinə gətirilə bilən və emitentə məlum olan əməliyyatlar barədə məlumat:** Mövcud deyil.

## 16.Emitentin maliyyə məlumatları

**16.1. Emitentin başa çatmış son üç maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları:**
Maliyyə hesabatları MHBS-ə uyğun hazırlanmışdır.

### 16.1.1. Maliyyə Vəziyyəti Haqqında Hesabat

| Açıqlama (Azərbaycan manatı ilə) | 31.12.2022 (Audit edilmiş) | 31.12.2023 (Audit edilmiş) | 31.12.2024 (Audit edilmiş) | 31.12.2025 (Audit edilməmiş) |
|---|---|---|---|---|
| **Aktivlər** | | | | |
| *Uzunmüddətli aktivlər:* | | | | |
| Əmlak və avadanlıqlar | 42 134 | 37 652 | 71 636 | 111 675 |
| İstifadə hüququ olan aktivlər | 244 026 | 122 013 | 602 543 | 401 695 |
| Təxirə salınmış mənfəət vergisi aktivi | 14 899 | 4 022 | 57 661 | - |
| **Cəmi uzunmüddətli aktivlər** | **301 059** | **163 687** | **731 840** | **513 370** |
| *Cari aktivlər:* | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 208 419 | 429 300 | 442 416 | 2 124 783 |
| Debitor borcları | 1 411 299 | 1 436 750 | 28 196 957 | 25 646 185 |
| Mal-material ehtiyatları | 6 626 590 | 11 904 625 | 10 150 854 | 5 054 522 |
| Təchizatçılara ödənilmiş avans ödənişləri | 8 578 884 | 7 612 713 | 12 987 657 | 4 770 047 |
| Verilmiş borc vəsaitləri | 5 912 691 | 4 790 942 | 2 757 425 | 9 563 554 |
| Vergi üzrə avans ödənişləri | 924 134 | | | - |
| Digər cari aktivlər | 728 202 | 1 010 342 | 938 647 | - |
| **Cəmi cari aktivlər** | **24 390 219** | **27 184 672** | **55 473 956** | **47 159 091** |
| **CƏMİ AKTİVLƏR** | **24 691 278** | **27 348 359** | **56 205 796** | **47 672 461** |
| **ÖHDƏLİKLƏR** | | | | |
| Uzunmüddətli öhdəliklər: | | | | |
| Buraxılmış borc qiymətli kağızları | | | | |
| İcarə öhdəliyi | 121 493 | - | 440 090 | 232 501 |
| **Cami uzunmüddətli öhdəliklər** | **121 493** | **-** | **440 090** | **232 501** |
| Cari öhdəliklər: | | | | |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 3 459 312 | 4 486 031 | 5 583 411 | 20 571 385 |
| İcarə öhdəliyi | 136 071 | 136 072 | 211 308 | 207 589 |
| Müştərilərdən alınmış avanslar | 2 631 711 | 2 098 463 | 1 845 471 | 1 525 665 |
| Calb edilmiş borc vəsaitləri | 16 322 967 | 12 952 042 | 30 233 487 | 276 096 |
| Vergi üzrə öhdəliklər | - | 635 737 | 1 516 605 | 6 064 |
| Buraxılmış borc qiymətli kağızları | | | | |
| Səhmdara ödəniləcək digər vəsaitlər | 67 918 | 2 662 | 2 662 | - |
| **Cəmi cari öhdəliklər** | **22 617 979** | **20 311 007** | **39 392 944** | **22 586 800** |
| **Cəmi öhdəliklər** | **22 739 472** | **20 311 007** | **39 833 034** | **22 819 300** |
| **KAPİTAL** | | | | |
| Nizamnamə kapitalı | 2 000 010 | 3 000 010 | 3 000 010 | 3 000 010 |
| Bölüşdürülməmiş mənfəət/(yığılmış zərər) | (48 204) | 4 037 342 | 13 372 752 | 21 853 151 |
| **Cəmi kapital** | **1 951 806** | **7 037 352** | **16 372 762** | **24 853 161** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | **24 691 278** | **27 348 359** | **56 205 796** | **47 672 462** |

### 16.1.2. Mənfəət və ya Zərər və Digər Məcmu Gəlirlər haqqında Hesabat

| Açıqlama (Azərbaycan manatı ilə) | 31.12.2022 (Audit edilmiş) | 31.12.2023 (Audit edilmiş) | 31.12.2024 (Audit edilmiş) | 31.12.2025 (Audit edilməmiş) |
|---|---|---|---|---|
| **Satış gəlirləri** | 13 944 155 | 31 191 426 | 63 657 809 | 81 591 366 |
| Satışın maya dəyəri | (11 830 651) | (22 945 515) | (47 015 999) | (63 862 527) |
| **Ümumi mənfəət** | **2 113 504** | **8 245 911** | **16 641 810** | **17 728 839** |
| İnzibati xərclər | (681 510) | (615 888) | (1 131 396) | (1 968 911) |
| Satış və paylanma xərcləri | (694 596) | (1 214 770) | (3 114 479) | (6 140 416) |
| **Əməliyyat mənfəəti** | **737 398** | **6 415 253** | **12 395 935** | **9 619 511** |
| Maliyyə xərci | (43 925) | (30 908) | (58 781) | (49 092) |
| Məzənnə fərqi üzrə zərər/xalis | (138 011) | (195 345) | (298 293) | - |
| Digər gəlirlər | 5 700 | 170 748 | 26 062 | - |
| Digər xərclər | (156 687) | - | (240 082) | (1 083 956) |
| **Mənfəət vergisindən əvvəl mənfəət** | **404 475** | **6 359 748** | **11 824 841** | **8 486 464** |
| Mənfəət vergisi xərci | (168 044) | (1 274 202) | (2 489 431) | (6 064) |
| **İl üzrə xalis mənfəət** | **236 431** | **5 085 546** | **9 335 410** | **8 480 399** |
| **İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR** | **68 387** | **5 085 546** | **9 335 410** | **8 480 399** |

### 16.1.3. Kapitalda Dəyişikliklər haqqında Hesabat

| Açıqlama (Azərbaycan manatı ilə) | Nizamnamə kapitalı | (Yığılmış zərər)/ Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|
| **01 yanvar 2022-ci il** | **2 000 010** | **(284 635)** | **1 715 375** |
| İl üzrə cəmi məcmu gəlir | - | 236 431 | 5 085 546 |
| **31 dekabr 2022-ci il** | **2 000 010** | **(48 204)** | **1 951 806** |
| İl üzrə cəmi məcmu gəlir | - | 5 085 546 | 5 085 546 |
| Nizamnamə kapitalına yönəldilmiş bölüşdürülməmiş mənfəət | 1 000 000 | (1 000 000) | - |
| **31 dekabr 2023-cü il** | **3 000 010** | **4 037 342** | **7 037 352** |
| İl üzrə cəmi məcmu gəlir | - | 9 335 410 | 9 335 410 |
| **31 dekabr 2024-cü il** | **3 000 010** | **13 372 752** | **16 372 762** |
| İl üzrə cəmi məcmu gəlir | - | 8 480 399 | 8 480 399 |
| **31 dekabr 2025-ci il** | **3 000 010** | **21 853 151** | **24 853 161** |

## 16.1.4. Pul Vəsaitlərinin Hərəkəti haqqında Hesabat

| Açıqlama (Azərbaycan manatı ilə) | 31.12.2022 (Audit edilmiş) | 31.12.2023 (Audit edilmiş) | 31.12.2024 (Audit edilmiş) | 31.12.2025 (Audit edilməmiş) |
|---|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | | |
| Mənfəət vergisindən əvvəl mənfəət | 404 475 | 6 359 748 | 11 824 841 | 8 486 464 |
| Mənfəət vergisindən əvvəlki mənfəətin xalis pul vəsaitlərinin hərəkəti ilə üzləşdirilməsi üzrə düzəlişlər: | | | | |
| Amortizasiya xərcləri | 127 304 | 130 812 | 220 928 | 220 696 |
| İstifadə edilməmiş məzuniyyət üzrə ehtiyatda dəyişiklik | 6 049 | (5 112) | 74 882 | - |
| Məzənnə fərqi üzrə zərər, xalis | 138 011 | 195 345 | 298 293 | - |
| Təchizatçılara ödənilmiş avans ödənişləri üzrə ehtiyat | (157 552) | - | (61 761) | - |
| **Dövriyyə kapitalında dəyişikliklərdən əvvəlki əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri:** | **518 287** | **6 680 793** | **12 357 183** | **8 707 160** |
| Əməliyyat aktivləri və öhdəliklərində dəyişikliklər: | | | | |
| Mal-material ehtiyatları | (4 424 146) | (5 278 035) | 1 753 771 | 5 096 332 |
| Debitor borcları | (935 671) | (24 835) | (26 760 207) | 2 550 772 |
| Kreditor borcları və digər ödəniləcək | 826 664 | 1 007 753 | 1 122 462 | 14 987 974 |
| Müştərilərdən alınmış avanslar | 765 345 | (533 248) | (252 992) | (319 806) |
| Təchizatçılara ödənilmiş avans ödənişləri | (2 207 547) | 966 171 | (5 313 183) | 8 217 610 |
| Vergi qalıqları üzrə dəyişikliklər | (487 460) | 661 946 | (60 239) | (1 510 541) |
| Digər cari aktivlər | (334 406) | (282 140) | 71 695 | 938 647 |
| **Ödənilmiş mənfəət vergisindən əvvəl əməliyyat fəaliyyətinə (yönələn)/daxil olan pul vəsaitləri:** | **(6 278 934)** | **3 198 405** | **(17 081 510)** | **38 668 148** |
| Ödənilmiş mənfəət vergisi | (230 328) | (365 400) | (1 601 963) | - |
| **Əməliyyat fəaliyyətinə (yönələn)/daxil olan xalis pul vəsaitləri:** | **(6 509 262)** | **2 833 005** | **(18 683 473)** | **38 668 148** |
| **İNVESTİSİYA FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | | |
| Əmlak və avadanlıqlar üzrə ödənişlər | (47 425) | (4 317) | (44 457) | (55 351) |
| Verilmiş borc vəsaitləri üzrə daxilolmalar | 1 247 200 | 8 872 899 | 9 273 307 | 18 071 803 |
| Verilmiş borc vəsaitləri üzrə məxariclər | (7 159 891) | (7 751 150) | (7 239 790) | (24 877 931) |
| **İnvestisiya fəaliyyətindən daxil olan xalis pul vəsaitləri:** | **(5 960 116)** | **1 117 432** | **1 989 060** | **(6 861 479)** |
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | | |
| İcarə öhdəliyi üzrə əsas məbləğin ödənilməsi | (152 400) | (121 492) | (175 659) | 49 092 |
| Cəlb edilmiş borc vəsaitləri üzrə daxilolmalar | 15 235 481 | 7 489 517 | 38 415 734 | 13 535 609 |
| Cəlb edilmiş borc vəsaitləri üzrə əsas məbləğin qaytarılması | (2 873 400) | (10 860 442) | (21 134 289) | (43 492 999) |
| Səhmdara ödəniləcək digər vəsaitlərin qaytarılması | 67 918 | (65 256) | - | (2 662) |
| Digər | | | | (213 341) |
| **Maliyyələşdirmə fəaliyyətindən daxil olan/(yönələn) xalis pul vəsaitləri** | **12 277 599** | **(3 557 673)** | **17 105 786** | **(30 124 301)** |
| Məzənnə fərqlərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | (65 153) | (171 883) | (398 257) | |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİNDƏ XALIS ARTIM | (256 932) | 220 881 | 13 116 | 1 682 368 |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, ilin əvvəlinə | 421 426 | 208 419 | 429 300 | 442 416 |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, ilin sonuna | 164 494 | 429 300 | 442 416 | 2 124 784 |

**16.2.Emitent bir ildən az müddətdə fəaliyyət göstərdiyi təqdirdə bu dövrü əhatə edən audit edilmiş maliyyə hesabatları:** Emitent bir ildən çox müddətdir fəaliyyət göstərir.

**16.3.Maliyyə hesabatları MHBS-ə uyğun hazırlanmadığı təqdirdə, belə maliyyə hesabatları milli uçot standartlarına uyğun olaraq hazırlanmalıdır və ən azı aşağıdakıları özündə əks etdirməlidir:** Maliyyə hesabatları MHBS-ə uyğun olaraq hazırlanmışdır.

**16.4. Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı (olduqda):**Emitentin konsolidə edilmiş maliyyə hesabatları mövcud deyildir.

**16.5.Emitent son audit edilmiş maliyyə hesabatlarının tarixindən etibarən rüblük və ya yarım illik maliyyə hesabatlarını dərc etdiyi təqdirdə onlar baza emissiya prospektinə daxil edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatları audit edildiyi təqdirdə hesabata audit rəyi əlavə edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatı audit edilmədikdə bu qeyd edilməlidir:** Rüblük və yarımillik maliyyə hesabatları dərc edilməmişdir.

**16.6.Baza emissiya prospekti audit olunmuş son maliyyə hesabatından doqquz ay sonra hazırlanarsa bu zaman ən azı yarımillik aralıq audit edilmiş və ya audit edilməmiş maliyyə hesabatı prospektə əlavə edilməlidir. Aralıq maliyyə hesabatı əvvəlki maliyyə ilində eyni dövr üzrə müqayisəli hesabatla birgə tərtib edilməlidir:** Bu prospektin 16.1-ci bəndində qeyd edilmişdir.

**16.7.Emitentin maliyyə vəziyyətinə və gəlirliliyinə təsir edən son bir il ərzində hüquqi proseslər barədə məlumat (həllini gözləyən proseslər də daxil olmaqla):**Emitentin fəaliyyətinə təsir edəcək hər hansı həlli gözləyən hüquqi proses(lər) mövcud deyildir.

**16.8.Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində baş verən dəyişikliklər barədə məlumat:** Son maliyyə hesabatlarının dərcindən sonra şirkətin ödəmə qabiliyyəti və likvidlik göstəricilərində ciddi irəliləyişlər müşahidə olunmuşdur. Belə ki, 2024-cü ildə 30.2 milyon AZN təşkil edən cəlb edilmiş borc öhdəlikləri 2025-ci ilin sonuna demək olar ki, tamamilə geri ödənilmişdir. Bu kəskin azalma şirkətin borclanma əmsalının 2.3x-dən 0.9x-ə qədər geriləməsinə səbəb olmuş, maliyyə asılılığını əhəmiyyətli dərəcədə azaltmışdır. Eyni zamanda, cari likvidlik əmsalı 1.41-dən 2.09-a yüksələrək müəssisənin qısamüddətli öhdəliklərini qarşılama qabiliyyətinin daha da möhkəmləndiyini nümayiş etdirmişdir. Əməliyyat göstəricilərindəki dinamika gəlirliliyin artması ilə müşayiət olunmuşdur. Şirkətin ümumi gəlirləri 2024-cü illə müqayisədə 28% artaraq 81.6 milyon AZN-ə çatmışdır. Aktivlər üzrə mənfəətlilik (ROA) əmsalı 17%-dən 18%-ə yüksələrək aktivlərin istifadə səmərəliliyinin qorunduğunu göstərmişdir. Əsas aktivlərin strukturunda da mühüm dəyişikliklər qeydə alınmışdır. Mal-material ehtiyatlarının (hazır avtomobillərin) anbar qalığı 383 ədəddən 202 ədədə qədər azalmışdır ki, bu da dövriyyə vəsaitlərinin daha sürətli hərəkətini təmin etmişdir. Nəticədə, pul vəsaitlərinin dövretmə günləri 197 gündən kəskin şəkildə 26 günə qədər azalmışdır. Bu dəyişikliklər şirkətin əməliyyat effektivliyini artırmış və borc öhdəliklərinin icrası üçün daha çevik maliyyə bazası formalaşdırmışdır.

## 17.Emitent haqqında əlavə məlumatlar

**17.1.Emitentin nizamnamə kapitalı və onun tərkibi haqqında, o cümlədən nizamnamə kapitalının miqdarı, səhmlərin (payların) miqdarı, onların nominal dəyəri və növləri, habelə səhmlərin ayrı-ayrı növlərinin imtiyazları haqqında məlumat, adi və imtiyazlı səhmlərlə təsbit olunmuş hüquqların məzmunu:** Nizamnamə Kapitalının ümumi məbləği 3 000 010 (üç milyon on) manat həcmindədir və hər biri 30 000.10 (otuz min manat on qəpik olmaqla), 100 (bir yüz) paydan ibarətdir, pul şəklində 100 (yüz)%. Paylar üzrə hüquqlar Azərbaycan Respublikasının Mülki Məcəlləsi (bütün mətn üzrə Bu Məcəllə) və Cəmiyyətin Nizamnaməsinə əsasən aşağıdakı hüquqları vardır. Hər bir iştirakçının cəmiyyətin iştirakçılarının ümumi yığıncağında iştirak etmək, cəmiyyətin orqanlarını seçmək (təyin etmək), onlara seçilmək (təyin edilmək) və səsvermədə iştirak etmək ( Bu Məcəllənin 49-1.2-ci və 49-1.3-cü maddələrində nəzərdə tutulmuş hallar istisna olmaqla), şəxsən iştirak etmək və ya bu Məcəllə ilə müəyyən edilmiş qaydada təyin etdiyi nümayəndə vasitəsilə təmsil olunmaq, ümumi yığıncağın gündəliyində dəyişikliklərin edilməsini və gündəliyə yeni müzakirə mövzularının əlavə olunmasını tələb etmək hüququ vardır.

**17.2.Emitentin nizamnaməsi barədə aşağıdakı məlumat:**

**Fəaliyyət və məqsədlərin təsviri:** Emitentin Nizamnaməsinin son redaksiyası 2022-ci il tarixində Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş idarəsinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən dövlət qeydiyyatına alınmışdır. Cəmiyyət Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan bütün fəaliyyət növləri ilə məşğul ola bilər. Cəmiyyət Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq xüsusi icazə alınması tələb edilən fəaliyyət növləri ilə yalnız müvafiq icazəni (lisenziyanı) aldıqdan sonra məşğul ola bilər.

**İdarəetmə və nəzarət orqanlarının salahiyyətləri barədə müddəaların icmalı:**

**Direktorun səlahiyyətlərinə aşağıdakılar aid edilir:**

- Cəmiyyətin cari fəaliyyətinə rəhbərlik edir və onun operativ idarə olunmasını həyata keçirir.
- Vəkalətnamə olmadan Cəmiyyətin adından öz səlahiyyəti daxilində çıxış edir, onu bütün dövlət hakimiyyəti və yerli özünüidarə orqanları, kommersiya və qeyri-kommersiya təşkilatları qarşısında, o cümlədən məhkəmələrdə iddiaçı və cavabdeh qismində təmsil edir.
- Ümumi Yığıncaq tərəfindən qəbul edilmiş qərarların vaxtında və lazımi qaydada icra olunmasını təmin edir.
- Öz səlahiyyəti daxilində Cəmiyyətin adından mülki-hüquqi müqavilələr, vəkalətnamələr verir (o cümlədən başqasına etibar etmək hüququ ilə), müvəkkil banklarda Cəmiyyətin istənilən növ bank hesablarını açır və maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı hesab üzrə sərəncam verir.
- Cəmiyyətin əməkdaşlarının əmək funksiyasının dairəsini müəyyən edir, onlarla əmək müqavilələri bağlayır, şərtlərini dəyişdirir və qanunvericiliklə müəyyən edilmiş qaydada və əsaslarla əmək müqavilələrini ləğv edir.
- Cəmiyyətin əmakdaşları barəsində həvəsləndirmə və intizam tənbeh tədbirləri görür.
- Öz səlahiyyəti daxilində qərarlar qəbul edir və həmin qərarları yazılı surətdə əmrlə rəsmiləşdirir.
- Cəmiyyətin fəaliyyəti ilə əlaqədar digər zəruri sənədlərin və təkliflərin hazırlanmasını həyata keçirir.

**Cəmiyyətin ali idarəetmə orqanı** İştirakçılarının Ümumi Yığıncağıdır (bundan sonra-Ümumi Yığıncaq). Cəmiyyətin təsisçisi bir nəfər olduqda, Cəmiyyətin Ümumi Yığıncağının səlahiyyətləri təsisçi tərəfindən təkbaşına həyata keçirilir.

Ümumi Yığıncaq növbəti və növbədənkənar ola bilər. Növbəti Ümumi Yığıncaq icra orqanı tərəfindən müəyyən edilmiş müddətdə çağırılır. Hər bir iştirakçının cəmiyyətin iştirakçılarının ümumi yığıncağında iştirak etmək, cəmiyyətin orqanlarını seçmək (təmin etmək), onlara seçilmək (təyin edilmək) və səsvermədə iştirak etmək(Mülki Məcəllənin 49-1.2-ci və 49-1.3-cü maddələrində nəzərdə tutulmuş hallar istisna olmaqla), şəxsən iştirak etmək və ya bu Məcəllə ilə müəyyən edilmiş qaydada təyin etdiyi nümayəndə vasitəsilə təmsil olunmaq, ümumi yığıncağın gündəliyində dəyişikliklərin edilməsini və gündəliyə yeni müzakirə mövzularının əlavə olunmasını tələb etmək hüququ vardır. İştirakçıların həmin hüquqlarını məhdudlaşdıran hər hansı razılaşma və ya hərəkət etibarsızdır.

**Ümumi Yığıncağın müstəsna səlahiyyətlərinə aşağıdakılar aiddir:**

- Cəmiyyətin Nizamnaməsinə əlavə və dəyişikliklər edilməsi, onun nizamnamə kapitalının miqdarının dəyişdirilməsi;
- Cəmiyyətin nizamnamə kapitalına ödənilən pul olmayan əmanətin dəyərinin təsdiq edilməsi;
- Cəmiyyətin növbədənkənar ümumi yığıncaqlarının çağırılması hallarının və qaydasının müəyyən edilməsi
- Cəmiyyətin illik hesabatlarının və maliyyə hesabatlarının təsdiq edilməsi, mənfəətin və zərərin bölüşdürülməsi;
- Cəmiyyətin yenidən təşkili və ya ləğv edilməsi haqqında qərarın qəbul edilməsi;
- Cəmiyyətin icra orqanlarının yaradılması və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi, o cümlədən Direktorun təyin edilməsi və geri çağırılması;
- Cəmiyyətin direktorlar şurası (və ya müşahidə şurası) və (və ya təftiş komissiyasını(müfəttişini)) seçmək və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;
- Cəmiyyətin fəaliyyətinin auditor yoxlanışlarının aparılması qaydasının müəyyən edilməsi;

• Cəmiyyətin xalis aktivlərinin dəyərinin əlli faizindən artıq məbləğdə olan əqdin bağlanılması barədə qərarın qəbul edilməsi;
• Aidiyyəti şəxslə hüquqi şəxsin aktivlərinin 5% və daha çox hissəsini təşkil edən əqdin bağlanması ilə bağlı qərarın qəbul edilməsi.
Ümumi Yığıncaqda hər bir iştirakçının onun nizamnamə kapitalındakı payına mütənasib səsi vardır. Cəmiyyətin iştirakçılarının ümumi yığıncağında cəmiyyətin paylarının 50%-dən artıq hissəsinə malik olan iştirakçıları iştirak etdikdə ümumi yığıncaq səlahiyyətlidir. Cəmiyyətin iştirakçılarının ümumi yığıncağında yetərsay olmadıqda, ümumi yığıncaq cəmiyyətin icra orqanı tərəfindən cəmiyyətin nizamnaməsində müəyyən edilmiş qaydada, ümumi yığıncağın gündəliyi dəyişdirilmədən çağırılmalıdır. Yenidən çağırılan ümumi yığıncaq cəmiyyətin paylarının 50%-nə malik olan iştirakçıları iştirak etdikdə səlahiyyətlidir. Yenidən çağırılan yığıncaqda yetərsay olmadıqda, ümumi yığıncaq cəmiyyətin icra orqanı tərəfindən cəmiyyətin nizamnaməsində müəyyən edilmiş qaydada, ümumi yığıncağın gündəliyi dəyişdirilmədən təkrarən çağırılmalıdır. Təkrarən çağırılan ümumi yığıncaq cəmiyyətin paylarının 25%-nə malik olan iştirakçıları iştirak etdikdə səlahiyyətlidir. Bir iştirakçıdan ibarət olan cəmiyyətdə ümumi yığıncağın səlahiyyətlərinə aid olan məsələlər barəsində qərarlar həmin iştirakçı tərəfindən təkbaşına qəbul edilir və yazılı surətdə rəsmiləşdirilir. Cəmiyyətin ləğv edilməsi və ya yenidən təşkili barədə qərarların qəbul olunması üçün Cəmiyyətin nizamnamə kapitalındakı payların 100%-nə malik olan iştirakçılar Ümumi Yığıncaqda təmsil olunmalıdırlar. Ümumi Yığıncaqda nizamnamənin və nizamnaməyə edilən əlavə və dəyişikliklərin, nizamnamə kapitalına ödənilən pul olmayan əmanətin dəyərinin təsdiq edilməsi, Cəmiyyətin yenidən təşkil və ya ləğv edilməsi barədə qərarlar bütün təsisçilərin yekdil qərarı, digər məsələlər isə sadə səs çoxluğu ilə qəbul edilir. Ümumi Yığıncağın qərarları iştirakçılar tərəfindən qəbul edilir, onlar tərəfindən imzalanır və Cəmiyyətin möhürü ilə təsdiqlənir.

**17.3.Emissiya olunan qiymətli kağızlar baxımından qiymətli kağızlar barədə emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edən emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr barədə məlumat:** Mövcud deyil.

## 18. Baza emissiya prospekti üzrə istiqrazlar haqqında tələb olunan məlumat

**18.1.Qiymətli kağızların emissiyasını tənzimləyən qanunvericilik:** Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, ləğv olunmuş Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016 -cı il tarixli 05 nömrəli qərarı ilə təsdiq edilmiş "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar və 27 yanvar 2016-cı il tarixli, 04 saylı nömrəli Qərarı ilə təsdiq edilmiş "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında" Qaydalar.

**18.2.Təklif olunan qiymətli kağızların reytinqi və bu reytinqə təsir edən amillər barədə məlumat:** Təklif edilən istiqrazların reytinqi mövcud deyil.

**18.3.İstiqrazların əldə edilməsi üçün məhdudiyyətlər (olduqda):** Hər hansı məhdudiyyətlər nəzərdə tutulmamışdır.

**18.4.İstiqraz üzrə gəlirlərdən mənbədə verginin tutulması barədə məlumat. İstiqraz üzrə gəlirlərdən mənbədən verginin tutulması barədə emitentin öhdəliyi:** İstiqrazlar üzrə faiz ödənişi zamanı qanunvericilikdə müəyyən edilmiş qaydada ödəmə mənbəyindən vergi tutulur. AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır. İstiqraz üzrə gəlirlərdən mənbədən verginin tutulması üzrə Emitentin öhdəliyi müvafiq müqavilə əsasında ödəniş agenti olan Milli Depozit Mərkəzi ötürülür. Milli Depozit Mərkəzi faiz (kupon) ödənişi günündən bir iş gün əvvələ düşən iş gününün sonunda saat 18.00-da istiqraz sahiblərinin reyestrini

formalaşdıracaqdır. Növbəti iş günü (ödəniş günü) həmin reyestrdə adları qeyd olunan investorlara sahib olduqları istiqrazların sayına görə müvafiq faiz (kupon) ödənişinin məbləği hesablanacaqdır.

**18.5.Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat:** Emissiya ediləcək istiqrazlar həm fiziki, həm də hüquqi şəxslər tərəfindən əldə edilə bilər.

**18.6.İstiqrazların növü:** Faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqraz.

**18.7.Təklif edilən istiqrazların sayı və nominal dəyəri:** nominalı 100 (bir yüz) ABŞ dolları olan 100 000 (bir yüz min) ədəd istiqraz.

**18.8.İstiqrazların valyutası:** ABŞ dolları

**18.9.İstiqrazlarla təsbit olunan hüquqlar, onların həyata keçirilmə qaydası və onlara dair məhdudiyyətlər:** İstiqraz mülkiyyətçiləri aşağıdakı hüquqlara malikdirlər:

- Emitentin ləğvi, yaxud emitentin kreditorlarının tələblərinin ödənilməsinin təminatına real təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda İstiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;
- İstiqrazların tədavül müddətinin sonunda istiqrazların nominal dəyərini Emitentdən almaq;
- İstiqrazların tədavül müddəti ərzində istiqrazların nominal dəyərindən hər bir buraxılışın yekun şərtlərində müəyyən olunmuş faiz dərəcəsinə uyğun faiz gəliri almaq;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

**18.10.Faiz və əsas borcun ödənilməsi ilə bağlı iddia müddəti:** Əsas borc və faizin ödənilməsi ilə bağlı iddia müddəti Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 372-384-cü maddələri ilə tənzimlənir.

**18.11.İstiqrazlar üzrə ödənilməli faizlər:** 1-ci buraxılış üzrə istiqrazların illik faiz dərəcəsi 9 (doqquz) faiz təşkil edir, 2-ci buraxılış üzrə isə istiqrazların illik faiz dərəcəsi yekun şərtlər ilə müəyyən olunacaq. İstiqrazlar üzrə hesablanmış faizlər, buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 24 (iyirmi dörd) ay müddətində, ildə günlərin sayı 360 (üç yüz altmış) olaraq götürülməklə hər 3 (üç) təqvim ayından bir ödəniləcəkdir. 1-ci buraxılış üzrə istiqrazların tədavül müddəti 24 ay təşkil edir. İstiqrazların dəyəri tədavül müddətinin sonunda ödəniləcək. İstiqrazların nominal dəyərinin ödənişi qeyri-iş gününə təsadüf edərsə, ödənişlər növbəti iş günü həyata keçiriləcəkdir.

**18.12.Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin hesablanması üsulu:** Faiz dərəcəsi müəyyən olunmuşdur.

**18.13.Bazarda baş verən hadisələrin istiqrazların baza aktivinə (olduqda) və istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri barədə məlumat. Belə halların tənzimlənməsi qaydaları və ya prosedurları:** İstiqrazlar üzrə baza aktivi mövcud deyil. Bazarda baş verən hadisələr istiqrazlar üzrə hesablaşmalara mənfi təsir göstərməyəcəkdir.

**18.14.Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** Təklif edilmiş istiqrazlar təmin edilməmişdir.

**18.15.İstiqrazların geri satın alınmasının şərtləri:** İstiqrazların geri satın alınması ilə bağlı Emitent tərəfindən öhdəlik nəzərdə tutulmur.

**18.16.Gəlirlik dərəcəsi və onun hesablanması qaydası:** İstiqrazlar üzrə kupon gəlirliliyi illik 9 (doqquz) faiz təşkil edir. İstiqrazlar üzrə toplanmış faizlərin hesablanması aşağıdakı düstura uyğun olaraq aparılır:

$$TF = \frac{\frac{(N * D * G)}{360}}{100}$$

**Burada:**

**TF** – Bir istiqraz üzrə toplanmış faizlər;

**N** – Bir istiqrazın nominal dəyəri: 100 (bir yüz) ABŞ dollar

**D** – İstiqrazların illik faiz dərəcəsi: 9 (doqquz) faiz

**G** – İstiqrazların faiz ödəniş dövrünün müddəti (hər 3 (üç) ayda bir (bir ayda 30 (otuz) gün olduğunu qəbul etmək şərti ilə);

**18.17.İnvestorları təmsil edən təşkilat barədə (olduqda) məlumat:** Mövcud deyil.